# "Mən muradsız atlıyam" deyən şair haqqında dost sözü



*Mahmud MAYILOĞLU,*
*Şair-publisist*

**Qəlbimdən başlanan küləyəm,**
**Açaram qapını açaram.**
**Qanadlı qismətin kimiyəm,**
**Başının üstündən uçaram.**

**Hardasan dilimin bircəsi,**
**Çıx, yerin minillik külçəsi.**
**Aç, açıl ömrümün qönçəsi,**
**Deyirdin yaz gəlsə açaram?..**

Mən onun əvvəl sözünü tanıdım, 1986-cı ildə rəhmətlik Siyavuş Sərxanlı "Azərbaycan" jurnalının 3-cü nömrəsinin 97-98-ci səhifələrində gənc şairlərin hərəsindən bir şeir çap etdirmişdi, Kamran Mehdi "Bu necə görüşdü", Məhərrəm Qasımov "Xoş gördük", "Mahmud Mayıloğlu "Dünyaya uşaq gəlib", Kəramət "Qəlbimdən başlanan küləyəm", Xəzər Zeynallı "Xəritəyə baxıram".

Bəli, Kəramətin özü ilə çox sonralar tanış oldum. Və tanış olandan sonra onun poetik aləminə azacıq da olsa bələd olmağa başladım.

Dahi Hegel yazır: "Estetik hissə malik olmayan mənəvi cəhətdən inkişaf edə bilməz".

Kəramətin hər şeirində estetik zövqün çoxcəhətliyini bilavasitə duymaq olur.

Kəramət söz aşiqidir. Və söz haqqın ətəyindən tutanda o söz çox yaşayır, yaddaşlarda qalır. Deməli söz həm də öz sahibini - şairi yaşadır.

Əli yanan adam əlini ağzına apardığı kimi şairin də ürəyi yananda əlini qələmə uzadır. Məhkəmənin dəyirman, hakimin dəyirman daşı, müttəhimin arpa dəni olduğu bir vaxtda dəyirman daşının fırlandıqca dəni una döndərdiyi bu dünyada vaxtında yazılmış şeir, zamanında çalınmış qılınc kimi kəsərli olur.

Halallıq olmayan yerdə qələm də müqəddəsliyini, ilahiliyini itirir, kəsərdən düşür.

**Çıxsa bataqlıqdan - adamxanadan,**
**O, dahi olardı... Sən mənə inan.**
**Fəxri vətəndaştək dönərdi yurda,**
**Bu gün aramızdan qovulan insan.**

Ümid inam tükənərsə, insan ölümə məhkumdu. Paklığa, halallığa, müqəddəsliyə can atmayanın aqibəti yoxdur. O zaman ki, şair ürəyindən keçənləri yaza bilməyir, istər-istəməz yazdıqlarının canına, ruhuna bir əsəbilik, narazıçılıq kimi hisslər hopdurur. Dünyanın qışqıraqla dolu olduğu bir məqamda səmimiyyət qəhətə çıxır.

**Qanadlı vərəm bakteriyaları,**
**Ciyər kababı yeyib keyf eləyirlər.**
**Tər damcılayan tavan,**
**Deyir ki, əriyib qurtaracaqsan.**
**Ev oğrusu məzələnir mənimlə:**
**- Ay müəllim,**
**Sən hara, bura hara, xeyir ola?**
**Heç mən də qalmıram zarafatımdan:**
**- Ezam olunmuşam 4-5 aylığa...**
**(100 N-li xata)**

Məşhur yunan filosofu Sofokl deyib ki: "Kitablar oxucusunun dostudur. Yaxşılıqdan bəhs edən, hansı ki, oxucusuna müsbət insani keyfiyyətlər aşılayan kitablar əsl yaxşı dost hesab olunur. Oxucusuna mənfi emosiyalar verən və onları şərə, pisliyə sürükləyən kitablar isə pis dost kimi qiymətləndirilir.

Hər hansı bir fikri, ideyanı, olayı nəsrə və ya nəzmə çəkmək, ona ruh vermək böyük Yaradanın öz bəndəsinə bəxş etdiyi fəlsəfi idrakı, mənalar aləminin mahiyyətinin açarıdır.




Min illər ərzində nəyisə qələmə almaq, nəinki, insan barədə, hətta təbiətin ən güclü sirləri haqqında belə fikir mübadiləsi aparmaq, gerçək bir məntiqi sonluqdan qaynaqlanır. Bəşəriyyətə uydurma kimi görünən bu fikirlər yüz illər keçdikdən sonra böyük bir kəşf kimi məntiqi və əməli dəlilləri üzrə çıxarır. Allahın vəhyi ilə yazılmış əsl sənət əsərləri yüksək keyfiyyətlərinə görə füsunkar gözəlliyə, cazibədar təsir qüvvəsinə malik olur. Onlar öz daxilindən işıqlanan qiymətli daşlar kimi daim insanların yoluna nur saçır. Heç vaxt köhnəlmir, ölkələrdə bir-birini əvəz edən yeni insan nəsilləri arasında özlərinə hərarətli pərəstişkarlar tapır.

İstedadlı şair Kəramət də məhz belə yazarlardandır. 2019-cu ilin oktyabr ayında çapdan çıxmış Kəramətin "Xatirələr muzeyi (adam)" adlı şeirlər kitabını oxuyan hər bir kəs onun qəlb dünyasını görür.

Kitabın ön səhifəsindəki annotasiyada Kəramətin özünün yazdığı kimi "Əgər bu kitabdan üç şeir oxumasan günahkar sənsən.

Daha sonra beş şeir oxumasan məni lənətləyə bilərsən". Oxucu onun halallıqdan yoğrulan söz aləminin şahidi olur. Bu aləmdə hökm sürən təmizliyə, saflığa, düzlüyə, ülviyə, gözəlliyə həmfikirlik edir. Bu kitabda şairin sözlərdən könül sevdirən, ruh oxşayan bir çələng hörməsi göz oxşayır. Onun bu kitabındakı ürək çırpıntılarından doğan lirik misralarda şairin özü görünür, səsi eşidilir, nəfəsi duyulur.

**Beləcə uşaq qaldım, qoca yaşım olmadı,**
**Elçiliyə getmişdim, elçi daşım olmadı.**
**İşim dərd çəkmək oldu, özgə işim olmadı,**
**Hamı çıxıb gedibdi, indi tənhasan, təksən,**
**Mən muradsız atlıyam, sən qanadsız mələksən.**

**Bu zamanda eşq gəzmə, dünənimə gələrsən,**
**Məni keçmiş sanarsan, məni ölmüş bilərsən.**
**"Ay dəli" pıçıldayıb, bu halıma gülərsən,**
**Quruyan çinaranmı, yoxsa solmuş çiçəksən?**
**Mən muradsız atlıyam, sən qanadsız mələksən.**

**Robotdum, adam oldum, internetdən çıxıb gəl,**
**Şimşək olub çaxıb gəl, yağış olub yağıb gəl,**
**Qiyamətə az qalıb, bir qıyqacı baxıb gəl,**
**Ömrümün daldasında bir bax, ləçək-ləçəksən.**
**Mən muradsız atlıyam, sən qanadsız mələksən.**

Şairlik, bəstəkarlıq, rəssamlıq, yazıçılıq bir sözlə əsl sənətkarlıq sənət meyarıdır. Bu aspektdə yaradıcı insan-sənətkar olmaq həyati ehtirasdır, insanın hiss və duyğularının tufanıdır. İstedad ovuc içində sıxılmış xəmirə bənzəyir, nə qədər sıxılsa da barmaqların arasından pırtlayıb çıxar. Hər bir yaradıcı insanın daxilində sönməmiş bir vulkan var ki, nə vaxtsa qəfildən püskürür.

Bir anlıq təsəvvür edək ki: günəşin şüası vahid rəngə və vahid xassəyə malikdir.

Lakin o müxtəlif rənglərdə əksolunma kimi müşahidə edilir. Halbuki, əksolunmanın mahiyyəti günəşin şöləsindədir. Şair yaradıcılığı da belədir.

**İndi də mənimsən, yüz il sonra da,**
**Mən sənə çatınca kül olacaqsan.**
**Sən mənə yetincə gül olacaqsan.**




**Batır başdaşım torpağa,**
**Adını çığıra-çığıra.**
**mənəm doğulan doğum evində,**
**Adını çığıra-çığıra.**

Yaradıcılığın ruhu poetik düşüncənin nuru, cismi, elmi-ədəbi təfəkkürün səsidir. Həmçinin buna Tanrı vergisinin bəhrəsi və ya fitri istedadın bir çınqısı da demək olar.

Hər bir yeni kitab, poeziya nümunəsi, nəsr əsəri onu yazan müəllifin həyatının müxtəlif məqamlarının və həyata baxışının təzahürüdür.

Bədii əsər və poeziya o vaxt maraqlı və oxunaqlı olur ki, orda müəllifin səmimiyyətini hiss edir, səsini duya bilirsən. Bu baxımdan orijinal və olduqca səmimi bir üsluba malik olan şairin hər bir yeni kitabı oxucular tərəfindən maraqla qarşılanır və insanlara daha yaxın olur.

**Kəramətin kitabındakı şeirləri oxuduqca sanki onun səsini eşidirsən. O, sözlə yaşayır, sözlə yaşaya-yaşaya onu anlayacaq və dərk edəcək bir adamın uğruna çıxacağını, həmin adamla söhbətə başlayacağı günü gözləyir.**